**Respublika**. - 2024.- 5 noyabr. - № 244. - S. 6.

# COP29 ərəfəsində: qlobal iqlim problemlərinin birgə həllinə qərəz nədən qaynaqlanır?..

**Nurcan Süleymanova**

**COP29-un başlanmasına bir həftədən az qalsa da, konfransa olan maraq və dəstək artır. Avropa Regionlar Komitəsi, BMT Fondu və Yaşıl İqlim Fondu kimi nüfuzlu beynəlxalq təşkilatlar, həmçinin bir çox ölkə COP29-un qlobal iqlim dəyişmələri ilə mübarizədə əvəzsiz bir platforma olduğunu vurğulayıb.**

Adıçəkilən təşkilatlar COP29-un iqlim siyasətlərinin inkişafında, maliyyə öhdəliklərinin yerinə yetirilməsində və davamlı enerji hədəflərinin müəyyən edilməsində mühüm rol oynadığını bildirib, beynəlxalq ictimaiyyəti bu tədbirdə aktiv iştirak etməyə çağırıblar. Bakının ev sahibi olduğu bu tədbirin belə geniş diqqət cəlb etməsi, qlobal iqlim sammitinin əhəmiyyətinin hər zamankından daha çox başa düşüldüyünü və dünya ölkələrinin birgə hərəkət etməsi üçün möhkəm zəmin yaradıldığını göstərir.

Beynəlxalq iqlim müzakirələrində ev sahibi ölkələrin rolu böyük əhəmiyyət daşıyır. Çünki iqlim sammitləri həm yerli, həm də qlobal səviyyədə əhəmiyyətli dəyişikliklərin başlanğıcı kimi qiymətləndirilir. Ancaq COP tədbirlərinə ev sahibliyi edən bəzi ölkələr, xüsusilə inkişaf etməkdə olan dövlətlər Qərbin hədəfinə çevrilir. Bu ölkələrin iqlim öhdəliklərinə çatma bacarıqlarını zəiflətmək, iqlim dəyişmələri ilə bağlı siyasətlərini gözdən salmaq və ya maliyyə dəstəklərini ləngitmək məqsədilə böhtan və şantaj kampaniyaları təşkil olunur. Bu tip kampaniyalar əsasən həmin ölkələrin iqlim sahəsində nailiyyətlərini əhəmiyyətsizləşdirmək məqsədi daşıyır. Ev sahibi ölkənin iqlim tədbirləri və daxili siyasəti üzərində müəyyən təzyiqlər yaradılır, bu da həmin dövlətin əsas problemlərə fokuslanmasını çətinləşdirir. Eyni zamanda korrupsiya və ya insan hüquqları ilə bağlı iddialar, mövcud qlobal maliyyə dəstəyinin gecikməsinə və ya məhdudlaşdırılmasına səbəb olur. Bu isə həmin ölkələrin həm öz öhdəliklərini yerinə yetirmələrinə, həm də beynəlxalq arenada iqlim dəyişmələri ilə mübarizədə fəal iştiraklarına mane olur.

İqlim dəyişmələri ilə mübarizədə əsas məqsəd bütün ölkələrin qlobal səviyyədə əməkdaşlığını təmin etməkdir. Qərbin müəyyən ölkələri ittiham və ya böhtan kampaniyaları ilə zəiflətməyə çalışması, iqlim tədbirlərinin əsas məqsədlərindən uzaqlaşmağa səbəb olur və qlobal səylərə kölgə salır. COP tədbirləri qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizənin əsas platforması olmaqla yanaşı, dünya ölkələri arasında mühüm razılaşmaların əldə edildiyi məkandır. Bu tədbirlərdə əsas məqsəd inkişaf etmiş ölkələrin üzərinə düşən maliyyə öhdəliklərini yerinə yetirmələri və iqlim dəyişmələrinin təsirlərindən daha çox zərər çəkən inkişaf etməkdə olan ölkələrə dəstək vermələrini təmin etməkdir. Lakin son illərdə bəzi Qərb ölkələrinin bu maliyyə öhdəliklərindən yayınmaq üçün müxtəlif taktikalar işə saldığı nəzərə çarpır. Qərbin COP zirvələrində maliyyə öhdəliklərini yüngülləşdirmək və ya tamamilə qaçmaq üçün ev sahibi ölkələrə qarşı ittiham və təzyiq kampaniyaları həyata keçirdiyi müşahidə olunur. Bu cür yanaşmalar isə yalnız ev sahibi ölkələrin deyil, ümumilikdə iqlim mübarizəsinin zərərinə işləyir. Çünki iqlim dəyişmələri hər kəsin problemidir və onun təsirini azaltmaq üçün qlobal həmrəylik vacibdir. Təəssüf ki, ittiham və təzyiq kampaniyaları qlobal əməkdaşlıq ruhunu zədələyir. Gələcəkdə iqlim mübarizəsinin uğurlu olması üçün beynəlxalq səviyyədə maliyyə öhdəliklərinə qarşı bu cür təzyiq üsullarının istifadəsinin dayandırılması, daha şəffaf və ədalətli bir yanaşmanın təmin edilməsi olduqca əhəmiyyətlidir. 2020-ci ilə qədər inkişaf etmiş ölkələrin az inkişaf etmiş dövlətlərə iqlim dəyişmələri ilə mübarizə üçün illik 100 milyard ABŞ dolları ayırmaq öhdəliyi var idi. Lakin bu vəsait hələ də tam şəkildə təmin edilməyib və bəzi Avropa ölkələrinin yalnız minimal maliyyə dəstəyi göstərməsi Qərbin bu sahədəki öhdəliklərinə sadiq qalmadığını göstərir. Bu gecikmələr və maliyyə çatışmazlığı, xüsusilə iqlim dəyişmələrinin ağır nəticələrini yaşayan həssas ölkələrin adaptasiya və mübarizə qabiliyyətinə mənfi təsir göstərir. COP tədbirlərinin məqsədi qlobal iqlim əməkdaşlığını gücləndirmək və ədalətli maliyyə dəstəyi təmin etmək olduğu halda, böhtan və ittiham kampaniyaları, əksinə, iqlim məsələlərinin siyasiləşməsinə və beynəlxalq həmrəyliyin zəifləməsinə səbəb olur.

Azərbaycanın COP29-a ev sahibliyi üçün qısa müddətdə göstərdiyi hazırlıq səyləri ölkəmizin iqlim dəyişmələri ilə mübarizədəki mövqeyini və beynəlxalq öhdəliklərini yüksək səviyyədə yerinə yetirmək əzmini bir daha ortaya qoyur. Həm də "yaşıl enerji" sahəsindəki uzunmüddətli planları ölkənin bu sahədə lider mövqeyinə işarə edir. Ölkəmizin hazırlıq prosesini sürətlə həyata keçirməsi iqlim dəyişmələri ilə bağlı beynəlxalq məsuliyyətinə sadiqliyinin, həmçinin etibarlı tərəfdaş mövqeyinin sübutudur. Azərbaycanın "yaşıl enerji"yə keçid prosesində üzərinə götürdüyü öhdəliklər də beynəlxalq səviyyədə böyük diqqət çəkir.

Ölkəmiz təbii enerji mənbələrinin inkişafı ilə yanaşı, yenilənə bilən enerji layihələrinə də ciddi sərmayə yatıraraq, karbon emissiyalarını azaltmaq və ətraf mühiti qorumaq məqsədi güdür. Xüsusilə külək və günəş enerjisi sahəsində strateji layihələrin həyata keçirilməsi qlobal iqlim dəyişmələri ilə mübarizəyə fəal şəkildə töhfə verir. Beynəlxalq ictimaiyyətin, xüsusilə inkişaf etməkdə olan ölkələrin hüquqlarını qorumaq və onlara qarşı bu cür təzyiq taktikasına qarşı çıxmaq üçün həmrəylik nümayiş etdirməsi vacibdir. Əgər bütün ölkələr böhtan kampaniyalarının yaratdığı çətinliklərə qarşı ortaq bir mövqe sərgiləsə COP zirvələrinin əsas məqsədlərinə - qlobal həmrəylik və ədalətli maliyyə dəstəyi təmin edilməsinə daha asan nail olunacaq.